AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

**YEGANƏ QURBAN qızı MƏMMƏDOVA**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDAÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İNKİŞAF TARİXİ (1991-2015)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2017**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA-nın həqiqi üzvü

**Rəsmi opponentlər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**Elbrus Saleh oğlu İsayev**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Naxçıvan Dövlət Universitetinin “Azərbaycan tarixi” kafedrası**

Müdafiə 27 may 2017-ci il tarixdə saat ___ da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” aprel 2017-ci ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Təhsil istənilən ölkənin inkişaf səviyyəsini, xalqın rifah halını və mədəni nailiyyətlərini müəyyənləşdirən başlıca strateji sahələrdəndir. Təhsil həm də hər bir xalqın keçmişinin öyrənilməsi üçün böyük tarixi əhəmiyyətə malikdir. Bu mənada təhsil tarixinin öyrənilməsi də xüsusi aktuallıq kəsb edən məsələlərdəndir. Azərbaycanda təhsil sisteminin tarixi dərin köklərə dayansa da, onun müasir inkişafını 3 əsas mərhələyə ayırmaq olar:

1918-1920-ci illər arasında Azərbaycan Xalq Cumhuriyyəti dövrü;

1920-1990-cı illər arasında Sovet hakimiyyəti dövrü;

1991-ci ildən günümüzə qədər mövcud olan təhsil sistemi.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə hökumətin milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin yenidən qurulmasına xüsusi əhəmiyyət verməsi o dövrdə bir çox təhsil islahatlarının aparılması ilə nəticələnmişdir. Məsələn, təhsil Azərbaycan-türk dilində aparılmış, məktəblər milliləşdirilmiş, pedaqoji kurslar təşkil olunmuş, Bakı Dövlət Universiteti açılmışdı.

Bununla belə, Azərbaycanın müstəqilliyi əlindən alınmaqla xalqımızın azadlıq ideallarına və mənəviyyatına təcavüz olunmuş sovet hakimiyyəti illərində ölkəmizin təhsil sahəsində müəyyən inkişaf yolu keçməsi fakt olaraq qalır. Hər halda sovet dövrü Azərbaycanın tarixində müəyyən mərhələ təşkil edir və ziddiyyətlərlə dolu olsa da, bir sıra sahələrdə, o cümlədən təhsil sahəsində də irəliləyişlərin, inkişafın baş verməsi obyektiv qiymətləndirilməlidir. Belə ki, əhalinin savadsızlığının tədricən aradan qaldırılması, təhsilin pulsuz olması, kütləvi xarakter alması və sistem halında formalaşdırılması, təhsilin dünyəviliyinin təmin olunması məhz sovet dönəmi ilə bağlıdır. Belə ki, ilk dövrlərdə ibtidai təhsilin icbari elan edilməsi, yeddiillik, sonra səkkizillik, daha sonrakı dövrlərdə orta təhsilin icbariliyinin həyata keçirilməsi, şübhəsiz, böyük uğur sayılmalıdır.

Heç şübhəsiz, sovet hakimiyyəti illərində bütövlükdə Azərbaycanın, eləcə də ölkə təhsilinin, xüsusilə orta təhsilin vüsətli tərəqqisi ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrə təsadüf edir. İqtisadiyyat və sosial-mədəni sahələrdə inkişafla yanaşı, insanların mənəvi yüksəlişi ilə şərtlənən bu dövr ölkəmizin tarixinə, sözün əsl mənasında "qızıl dövr", "intibah dövrü" kimi daxil olmuşdur.

"Təhsil millətin gələcəyidir" deyən Heydər Əliyev Azərbaycan təhsilinin inkişafında mühüm xidmətlər göstərmişdir. Onun sayəsində ötən əsrin 70-80-ci illəri Azərbaycan təhsilinin coşqun yüksəliş illəri kimi tarixi yaddaşımıza daxil olmuşdur. Yaxın tarixə nəzər saldıqda 80 ilə yaxın Azər-

baycanın da tərkibində olduğu keçmiş Sovetlər Birliyinin ümumi təhsil sistemində nəzəri biliklərin, fakt və məlumatların öyrədilməsinə daha geniş yer verildiyi açıq-aydın görünür. Siyasi, ideoloji fərqlərə görə digər qabaqcıl dövlətlərin təhsil sahəsində təcrübəsini öyrənmək imkanı yaradılmadığından ölkə daxilində hamı sovet təhsil sistemini dünyada ən qabaqcıl, mütərəqqi və humanist sistem kimi qəbul etmişdi.

Azərbaycanda bütövlükdə təhsil sisteminin, o cümlədən də ümumi təhsilin milli ənənələr, milli mənəvi və bəşəri dəyərlər zəminində dinamik və məqsədyönlü inkişafı məhz dövlət müstəqilliyinin bərpasından sonra mümkün oldu. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra tənəzzül və iflasdan çıxaraq inkişafa doğru inamla addımlamağa başlayan respublikada bütün sahələrdə islahatların aparılması üçün münbit şərait yarandı. Zəngin həyat və dövlətçilik təcrübəsi olan ulu öndər Heydər Əliyev cəmiyyətin inkişafında təhsilin rolunu yüksək qiymətləndirir, bu sahədə islahatların tezliklə başlanmasını zəruri hesab edirdi. Bu mənada dahi rəhbərin 1998-ci ildə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə sərəncamı, bir il sonra isə təsdiq etdiyi “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” müstəqil ölkəmizin təhsil salnaməsinə müstəsna əhəmiyyətə malik tarixi sənədlər kimi daxil olmuşdur. Ali təhsil islahatlarında qəbul olunan dövlət proqramlarında əsas məqsəd ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

Azərbaycanda təhsilin inkişafı kontekstində Naxçıvanda da təhsil özünəməxsus tarixi inkişaf yolu keçmişdir. Müəyyən dərəcədə bu problemə Naxçıvanın tarixinə dair ümumiləşdirici işlərdə, ictimai-siyasi və maarifçi fikrinin inkişafı ilə bağlı tədqiqatlarda müəyyən qədər müraciət olunmuşdur. Mövcud tədqiqatların məzmunu ilə tanışlıq göstərir ki, XIX əsrin ikinci yarısı – XX əsrin 90-cı illərinin əvvəllərinədək təhsil problemlərinə daha çox diqqət yetirilmiş, müstəqilliyin ilk illəri ümumiləşdirilmiş şəkildə öyrənilmişdir. Buna baxmayaraq, Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrünün, konkret olaraq ümumi təhsilinin tarixini işıqlandıran kompleks

şəkildə fundamental tədqiqat yoxdur. Belə ki, dissertasiyada müstəqillik illərində ümumi təhsilin hərtərəfli öyrənilməsi mövzunun aktuallığını artırır.

Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdən etibarən Naxçıvan Muxtar Respublikasının bugünkü uğurlarının, xüsusilə ümumi təhsilin inkişafının əsası qoyuldu.

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə təhsil sistemində də geriliyə son qoyuldu. Təhsilə göstərilən diqqət və qayğı ilk günlərdən özünü büruzə verməyə başladı. Təhsil sahəsində Heydər Əliyevin qəbul etdiyi strateji xəttin üstünlüyü onda idi ki, təhsil müəssisələrinin normal fəaliyyətini təmin etməklə, təhsil xalqımızın və milli dövlətimizin tərəqqisinin güclü amilinə çevrildi.

Bu siyasət ulu öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təhsil məsələləri də Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin siyasətini davam etdirməsinin tədqiqi də mövzunun aktuallığını göstərən amillərdən biridir.

Azərbaycan Respublikasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla icra olunur. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı nəticəsində Naxçıvan Muxtar Republikasında ümumitəhsil məktəblərinin maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması üzrə əməli təşkilatı tədbirlər işlənib həyata keçirilmişdir. Bu baxımdan ümumtəhsil məktəblərinin inkişaf yolunun, tarixinin müəyyənləşdirməsi və ümumiləşdirilməsi aktuallıq kəsb edir.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafını və təhsil sahəsinin problemlərini elmi tədqiqata cəlb etməyə əsas vermişdir. Bu da mövzunun aktuallığını bir daha şərtləndirir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işinin xronoloji çərçivəsi onun vəzifələri ilə müəyyənləşir və Azərbaycanın müstəqillik dövrünü (1991-2015-ci illər) əhatə edir. Buna baxmayaraq tədqiqat zamanı Naxçıvanda ümumi təhsildə tarixilik məsələsinə az da olsa toxunulmuşdur.

Bəhs olunan dövrdə Azərbaycanın, nəhayət, yenidən müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının tarixində mürəkkəb, ağır və ziddiyyətli bir dövrü, eləcə də müstəqil, demokratik və hüquqi dövlət quruculuğu dövrü olmuşdur. Dissertasiyada qeyd olunan dövrdə Naxçıvan Muxtar Respublikasında ümumi təhsilin inkişafı ilə bağlı məsələlər müxtəlif səpkili məlumatların əsasında ətraflı şəkildə tədqiq olunur. Tədqiqat işində

həmçinin, Naxçıvan Muxtar Respublikasında ümumtəhsil sahəsinin problemlərinə də yer verilir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan Respublikasının, həmçinin onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhsil tarixi Azərbaycanın görkəmli alimləri, müxtəlif ixtisas sahələrini təmsil edən tədqiqatçıları tərəfindən araşdırılmış, bir sıra dəyərli əsərlər yazılmışdır. Ancaq bütün bu yazılanlara baxmayaraq bu problem indiyədək sistemli tədqiqat obyektinə çevrilməmiş, dissertasiya səviyyəsində öyrənilməmişdir. Yalnız H.Cəfərov "Naxçıvanda təhsil: inkişaf yolu və imkanları"[1] adlı monoqrafiyasında və bir sıra məqalələrində müstəqillik illərində ümumtəhsil məktəblərin inkişaf tarixindən sistemli şəkildə bəhs etmişdir. Ancaq bu tədqiqat işi ilə bağlı yuxarıda qeyd etdiyimiz kimi bir sıra monoqrafiya və məqalələr yazılmışdır ki, bunların sırasında H.Cəfərovun,[2] Q.Qasımovun,[3] Ə.Əliyevin,[4] İ.Hacıyevin,[5] Ə.Qasımovun,[6] V.Məmmədovun,[7] İ.Mollayevin,[8] F.Cəfərovun[9] əsərləri mühüm yer tutur. Bu kitab və məqalələr bilavasitə tədqiq etdiyimiz mövzu ilə sıx bağlıdır. Tədqiqat işinin Naxçıvan MR-in müxtəlif dövrlərdə inkişaf tarixinə və təhsil sahəsinin müxtəlif aspektlərinə aid tarix üzrə elmlər doktoru Həmzə Cəfərovun tərtib etdiyi cədvəllərin bir qismindən istifadə edilmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Tədqiqat zamanı bir sıra mənbələrə müraciət edilmişdir ki, bunlar da dissertasiya işinin yazılmasında mühüm rol oynamışdır. Heydər Əliyevin çox dəyərli və qiymətli fikirləri qarşımıza qoyduğumuz problemin öyrənilməsində əsas mənbələrdəndir. Bu

---

[1] Cəfərov H.R. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 544 s.

[2] Cəfərov H.R. Naxçıvan Muxtar Respublikasında təhsilə, elmə Heydər Əliyev qayğısı // NDU elmi əsərlərinin xüsusi buraxılışı. Naxçıvan: Qeyrət, 2000, №4 (24), s. 35-38.

[3] Гасымов Г. Деятельность КП Азербайджана по развитию народного образования в условиях развитого социализма (1959-1975 гг). По материалом Нахчыванской АССР. Автореф. дисс... канд. ист. наук. Баку: 1981, 28 с.

[4] Əliyev Ə. Naxçıvan MSSR-də maarifin inkişafı. Bakı: Azərnəşr, 1964, 260 s.

[5] Hacıyev İ.M. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.; Yenə onun: Naxçıvan Muxtar Resublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: Əcəmi, 2012, 272 s. ; Yenə onun: Naxçıvan Muxtar Resublikası müstəqillik yollarında. Bakı: Elm və təhsil, 2016, 360 s.

[6] Qasımov Ə. Heydər Əliyev və Naxçıvan MR-də təhsilin inkişafı (XX əsrin 70-80-ci illəri) // Tarix və gerçəklik, 2009, №1 (5), s. 11–18.

[7] Məmmədov V. Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan: Əcəmi, 2004, 260 s.

[8] Mollayev İ.A. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı. Bakı: Bilik, 1983, 31 s.

[9] Cəfərov.F, İsmayılova.Z Naxçıvanın məktəb tarixindən səhifələr. Bakı, ADPU nəşriyyatı, 2015, 227 s.

baxımdan Heydər Əliyevin məruzə, çıxış, nitq, bəyanatlar, müraciətlər, fərmanlar və müsahibələrini özündə əks etdirən “Müstəqilliyimiz əbədidir”[10] monumental çoxcildlik külliyyatı və digər əsərləri[11] tədqiqatımız üçün mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev təhsil sahəsində əldə edilmiş nailiyyətləri qiymətləndirərək demişdir: “XX əsrdə sözün geniş mənasında Azərbaycan məktəbi yaranıbdır. Azərbaycan dilində, xalqımız öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətini təhsilləndirən məktəb yaradıbdır. Bu ən böyük nailiyyətlərdən biridir. İqtisadiyyat da, həyatın başqa sahələri də bunun üzərindədir. Əgər bizim yüksək səviyyədə məktəblərimiz olmasaydı, əgər bizim gənclər, uşaqlar icbari təhsilə cəlb edilməsəydi, əgər ilbəil yüksək səviyyəli müəllim, professor kadrları olmasaydı, əgər elmimiz inkişaf etməsəydi biz indi nə iqtisadi potensiala, nə sosial potensiala, nə də təhsil potensialına malik ola bilməzdik. Ona görə də bunları unutmaq olmaz. Onları qiymətləndirmək, onlarla fəxr etmək lazımdır”.[12]

Heydər Əliyevin uzaqgörənliklə dediyi bu fikirlər Naxçıvan təhsilinin inkişaf tarixini də əhatə edir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində təhsil sistemi ölkənin üstün inkişaf edən sahəsinə çevrilmiş, təhsilə dövlət qayğısı artırılmış, “Millətin tərəqqisi onun təhsil sistemi ilə bağlıdır” həqiqəti bərqərar olmuşdur.

Həmçinin, Heydər Əliyev siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin[13] Azərbaycanın milli təhsilinin inkişafına verdiyi dəstək, tövsiyə və məsləhətləri dissertasiya işinin yazılmasında mühüm mənbələrdən biri olmuşdur.

---

[10] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 3-cü kitab: dekabr, 1994-iyun, 1995. Bakı: Azərnəşr, 1997, 488 s. Yenə onun: Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 6-cı kitab: mart, 1996-iyun, 1996. Bakı: Azərnəşr, 1998, 512 s.; Yenə onun: Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 21-ci kitab: iyul, 1999-sentyabr, 1999. Bakı: Azərnəşr, 2007, 480 s.

[11] Əliyev Heydər. Azərbaycan gənclərinin I Forumunda çıxışı. Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Bakı: Azərnəşr, 1996, 452 s.; Yenə onun: Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2007, 574 s.

[12] Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: “Əcəmi” NPB, 2015, 232 s.

[13] Əliyev İlham. İnkişaf məqsədimizdir. Bakı: Azərnəşr, 2015, 424 s.; Yenə onun: II kitab oktyabr 2003–fevral 2004. Bakı: Azərnəşr, 2009, 432 s.; Yenə onun: III kitab: fevral 2004 aprel 2004. Bakı: Azərnəşr, 2009, 416 s.

Azərbaycan xalqının xoşbəxtliyidir ki, Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı ilə (1993-cü ildə) təhsildə dağıdıcı proseslərin qarşısı alındı. Onun bilavasitə rəhbərliyi və iştirakı ilə başlanan daxili siyasət Azərbaycan Respublikasında təhsilin, həmçinin Naxçıvanda təhsilin inkişafını da əhatə etdi. Maarifçilik ənənələrinin qorunub saxlanması Azərbaycan Respublikanın milli təhsil konsepsiyası ilə uyğunlaşdırılaraq dünya təhsili sisteminə sürətlə inteqrasiya olundu.

Heydər Əliyevin təhsilin inkişafı sahəsində müəyyənləşdirdiyi həmin strateji xətt bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bəşər mədəniyyətinin ən qədim ocaqlarından biri olan, Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvan regionu zəngin maarifçilik ənənəsinə malik olmuşdur. Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin müşavirəsində çıxış edərkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanda təhsilin qədim tarixə malik olması məsələlərinə toxunaraq demişdir ki, "Azərbaycanda təhsilin uzun tarixi vardır". Bu baxımdan Vasif Talıbovun vurğuladığı "Ədəbi-fəlsəfi fikir tarixinə, memarlıq sənətinə böyük dühalar bəxş etmiş, adı çəkilən sahələrdə intibaha səbəb olmuş şəxsiyyətlər yetirən məktəb ənənələrinin sistemli şəkildə öyrənilməsi məktəb tarixinin inkişafı baxımından fayda verə bilər" fikirləri də muxtar respublikada təhsilə yaxın münasibətdən xəbər verir.[14]

Muxtar respublikada son illərdə göstərilən yüksək dövlət qayğısı sayəsində təhsil yüksək inkişaf səviyyəsinə çatmışdır. Akademik İsa Həbibbəylinin vurğuladığı kimi: "Ötən 15 ildə (1995-2010) ucqar dağ kəndlərindən tutmuş rayon mərkəzlərində və Naxçıvan şəhərində 36024 şagird yeri olan 11 məktəbin tikilib istifadəyə verilməsi, 32350 yerlik 57 məktəbin yenidən qurulması muxtar respublikanı ölkənin məktəb tikintisi hərəkatının sıralarına çıxarmışdır".[15]

Mövzunun tədqiqində həmçinin, Azərbaycan Respublikasının bir sıra nazirlik və komitələrinin cari arxivlərinin materiallarından geniş istifadə olunmuşdur. Buraya Azərbaycan Respublikası Dövlət Arxivi,[16] Azərbaycan

---

[14] Talıbov V.Y. Muxtar respublika ümumtəhsil işçilərinin 9 aprel 2002-ci il tarixdə keçirilmiş müşavirəsində çıxışı. "Şərq qapısı" qəzeti, 2002, 11aprel

[15] Həbibbəyli İ.Ə. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti // Dirçəliş-XXI əsr, 2004, № 74-75, s. 210-220

[16] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. l, siy.l, iş 44

Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi,[17] Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Cari Arxivi[18] və Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin[19] materialları daxildir.

Burada həmçinin, Ali Məclisin Sədri Vasif Talıbovun Heydər Əliyev cənablarının siyasi fəaliyyətinin Naxçıvan dövrünün elm və maarifçilik məsələlərinə həsr etdiyi məqalələri və nitqləri mühüm mənbə rolunu oynamışdır.

Eyni zamanda təhsil tarixi və problemləri ilə əlaqədar nəşr olunmuş ümumiləşdirici əsərlər, qaynaqlar, sənədlər, qanunvericilik aktları, ensiklopediyalar, konfrans materialları toplusu və bu kimi nəşrlər mövzunun öyrənilməsi üçün tədqiqat obyektinə cəlb edilmiş mühüm mənbələrdəndir.

Adları çəkilən və çəkilməyən mənbə bazası ilə yanaşı mövzunun tədqiqi zamanı respublikanın dövrü mətbuatından, xüsusən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər kabinetinin təsisçisi olduğu "Şərq qapısı" qəzeti, həmçinin "Azərbaycan", "Azərbaycan müəllimi" və s. qəzetlərdəki materiallardan istifadə edilmişdir.

Dissertasiya işində İKT resursları olan dövlət orqanlarının rəsmi portalları da istinad obyekti kimi seçilmişdir. Prezident kitabxanasının, Heydər Əliyev İrsinin Araşdırma Mərkəzinin və digər qurumların rəsmi portallarının materiallarından yaradıcı şəkildə bəhrələnilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan Respublikasının Naxçıvan MR-də ümumtəhsil məktəblərinin inkişaf yolu və problemləri dissertasiya işinin əsas tədqiqat obyekti olmuşdur. Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin qorunması və inkişaf etdirilməsi sahəsində qəbul edilən qərarlar, bu işdə həyata keçirilən mühüm tədbirlər tədqiqatın predmetini təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat zamanı qarşıya qoyulmuş əsas məqsəd və vəzifələr aşağıdakılardır:

- Naxçıvanda təhsilin inkişaf tarixini ümumiləşdirmək;
- Muxtar respublikada ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi vəziyyətini müəyyənləşdirmək;
- Muxtar respublikada məktəb tikintisinin inkişaf dinamikasını araşdırmaq;

---

[17] Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.l, siy. l, iş 177; f.l, siy.7, iş 1068; f.l, siy. 61, iş 174; f.l, siy. 70. iş 11

[18] Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin cari arxivi (NMRTNCA), (2014-2015)

[19] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 1, siy. 1, iş 1; f. 1, siy. 1, iş 7; f. 1, siy. l, iş 12/2; f. 1, siy. l, iş 35; f. 1, siy. l, iş 41; f. 1, siy. 97, iş 77

- Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirləri şərh etmək;

- Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafını tədqiq etmək;

- Naxçıvan MR-də təhsilin vəziyyəti və ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təmin edilməsi vəziyyətini müəyyənləşdirmək;

- Ümumtəhsil məktəblərinin dərsliklərlə təmin edilməsi vəziyyətini müəyyən etmək;

- Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təhsilinin təşkili məsələsini araşdırmaq;

- Ümumtəhsil müəssisələrində istedadlı, yaradıcı şagirdlərin üzə çıxarılması sahəsində həyata keçirilən tədbirləri şərh etmək;

- Müstəqillik illərində məktəbəqədər və məktəbdənkənar müəssisələrin inkişafını öyrənmək;

- Müstəqillik illərində məktəbdənkənar tərbiyə müəssisələrinin inkişafı ilə bağlı həyata keçirilən tədbirləri araşdırmaq;

- Gənclərin vətənpərvərlik tərbiyəsində məktəbdənkənar müəssisələrin rolunu müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Tədqiqat işinin metodoloji əsasını analitik təhlil üsulu təşkil edir. Tədqiqat prosesində ümummentiqi metodlardan – analiz və sintez, ümumiləşdirmə, tarixi-xronoloji, müqayisəli və sistemli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi bir sıra amillərlə şərtlənir. Başlıca yeniliklər aşağıdakılardır:

- Hazırkı dissertasiya işi müstəqillik illərində Naxçıvan MR-də ümumtəhsil məktəblərinin inkişaf yolu və problemləri haqqında tarixi səpgidə çoxsaylı mənbə və faktlara əsaslanan ümumiləşdirilmiş ilk elmi tədqiqatdır;

- İlk dəfə olaraq müstəqillik illərində Naxçıvan MR-də ümumtəhsil məktəblərinin inkişaf yolu və problemləri kompleks şəkildə tədqiq edilmişdir;

- Naxçıvanda təhsilin inkişaf tarixi faktlarla təhlil və şərh edilmişdir;

-Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər tutarlı statistik rəqəmlərlə əsaslandırılmışdır;

- İlk dəfə olaraq muxtar respublikada məktəb tikintisinin inkişaf dinamikası təhlil edilmişdir;

- Müstəqillik illərində Naxçıvan MR-də maarifin inkişafı tutarlı faktlarla sübuta yetirilmişdir;

- Naxçıvan MR-də ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təmin edilməsi çoxsaylı sənədlərin məlumatları əsasında tədqiq olunmuşdur;

- Naxçıvan MR-də ümumtəhsil müəssisələrində istedadlı, yaradıcı şagirdlərin üzə çıxarılması sahəsində həyata keçirilən tədbirlər şərh edilir;

-Müstəqillik illərində Naxçıvan MR-də məktəbdənkənar müəssisələrin rolu, inkişaf dinamikası tədqiq olunmuşdur;

**Tədqiqatın elmi-praktik əhəmiyyəti**. Təqdim olunan dissertasiya işi yuxarıda göstərilən vəzifədən irəli gələn məsələlərin həlli istiqamətində atılan ilk addımdır. Dissertasiya işində Naxçıvanda maarifçilik hərəkatına, təhsil sisteminin inkişafı tarixinə ümumi nəzər salınır, həllini gözləyən problemlər müəyyənləşdirilir və şərh edilir.

Dissertasiyadakı ümumiləşdirmələr və çıxarılan nəticələr gələcəkdə bu problemlə bağlı aparılan yeni tədqiqatlar üçün əsas ola bilər. Hər bir bölgənin ümumtəhsil məktəblərinin tarixinin tədqiqində, regionların hərtərəfli inkişafına dair əsərlərin, bütövlükdə Azərbaycan Respublikasında maarifin inkişafına dair ümumiləşdirici əsərlərin yazılmasında səmərəli şəkildə istifadə etmək olar. Naxçıvan MR əhalisinin doğma diyarının təhsilinin tarixinə və bugünkü inkişaf səviyyəsinə dair biliklərinin zənginləşdirilməsində mühüm vasitə rolu oynaya bilər. Dissertasiya işinin nəticələri bakalavr və magistr dərəcəsi almaq üçün aparılan tədqiqatlar zamanı istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya mövzusu AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin iclasında (09 yanvar 2012-ci il tarixli 1 saylı qərarı ilə) məsləhət bilinmiş, AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunda fəaliyyət göstərən Respublika Elmi-Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Tarix üzrə problem şurasında 5 may 2012-ci ildə təsdiq edilmişdir (protokol №12). Dissertasiya işi AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun "Yeni və ən yeni tarix" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu, müddəaları və elmi nəticələri dissertantın Azərbaycan Respublikasında və xarici ölkələrdə dərc etdirdiyi elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavə cədvəldən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, məqsəd və vəzifələri, elmi yeniliyi və təcrübi əhəmiyyəti müəyyənləşdirilmiş, metodoloji əsası, mənbəşünaslıq bazası göstərilmiş, mövzunun araşdırılma səviyyəsi təhlil olunmuşdur.

Dissertasiyanın "**Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı, məktəb tikintisinin və onun maddi-texniki bazasının möhkəmləndirilməsi"** adlı birinci fəsli dörd yarımfəsilə ayrılmışdır. "**Naxçıvanda təhsilin inkişaf tarixi"** adlı birinci yarımfəsildə Naxçıvanda orta əsrlərdən bu günə qədər təhsilin inkişaf tarixinə nəzər salınmış və geniş şərh edilmişdir. Hələ Orta əsrlərdə Naxçıvan şəhərində maarifçi mərkəzlərin-məktəb və mədrəsələrin mövcudluğuna dair mənbələrdə məlumat vardır. Azərbaycanın Çar Rusiyası və Qacarlar dövləti arasında bölüşdürüldükdən sonra Rusiyanın əyalətə çevirdiyi Şimali Azərbaycanda siyasi-iqtisadi sahələrdə keçirdiyi islahatlarlar Naxçıvan diyarının da iqtisadi, ictimai və mədəni həyatında ciddi dəyişikliyə səbəb olmuşdur. XIX əsrin I yarısında Naxçıvanda mədrəsə ilə yanaşı, ibtidai rus məktəbləri də açılmışdı. Cənubi Qafqaz məktəblərinin inkişaf tarixinin araşdırılması göstərir ki, sonrakı dövrdə, yəni 1829-cu il Nizamnaməsi ilə Azərbaycanda qəza məktəblərinin əsası qoyulmuşdur. Həmin Nizamnaməyə görə bir sıra rayonlar, o cümlədən, Naxçıvanda qəza məktəblərinin açılması təsdiq edilmişdir. Qəza məktəblərindən biri 1837-ci il martın 15-də Naxçıvanda açıldı. 1878-79-cu tədris ilindən isə Naxçıvan qəza məktəbi şəhər məktəbinə çevrildi.[20] XIX əsr Azərbaycanın təhsil tarixində xalq məktəbləri xüsusi yer tuturdu. Naxçıvan qəzasında xalq məktəbləri XIX əsrin 80-ci illərindən sonra meydana gəlməyə başlamışdır. Digər yerlərdə olduğu kimi burada da məktəblər yalnız əhalinin könüllü ianələri hesabına fəaliyyət göstərmişdir. Onu da qeyd edək ki, Naxçıvanda ilk xalq məktəblərindən biri də Şərur-Dərələyəz qəzasının mərkəzi olan Cəlilkənddə fəaliyyətə başlamışdır.[21]

Naxçıvanda qadınlar arasında maarif işinin inkişafında kişilərlə yanaşı, ziyalı qadınların da mühüm xidmətləri olmuşdur. Görkəmli mesenat H.Z.Tağıyevin qız məktəbini bitirmiş Nazlı xanım Tahirova 1912-ci ildə Naxçıvan şəhərində qız məktəbi açmışdır.

---

[20] Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1965, 297 s.
[21] Zamanov K. 120 yaşlı məktəb. Naxçıvan: "Əcəmi" NPB, 2006, 32s.

1920-ci il aprel çevrilişindən sonra Azərbaycanda qurulan sovet rejimi dövründə maarif yeni formaya istiqamətləndirildi. Bu, Azərbaycanın Naxçıvan diyarını da əhatə etdiyindən burada təhsil sovet ideologiyasının tələblərinə uyğun şəkildə qurulmağa başladı. Beləliklə, 1921-1922- ci dərs ilindən başlayaraq yeni məktəblər açılmış, məktəb yaşlı uşaqlar ibtidai təhsilə cəlb edilmişdi. Bununla yanaşı, 1922-ci ildən etibarən məktəbəqədər tədris müəssisələri də yaradıldı. Naxçıvanda 1920-1930-cu illərdə maarif sahəsində əldə edilən mühüm nailiyyətlərdən biri qadınlar arasında savadsızlığın ləğv edilməsi məsələsi idi. XX əsrin 20 – 30-cu illərində yaşlı əhalinin savadlandırılması sahəsində həyata keçirilmiş tədbirlər Naxçıvan MSSR-də savadsızlığın ləğvinə və təhsilin səviyyəsinin yüksəlməsinə səbəb oldu.

Ümumiyyətlə, XX əsrin 20–30-cu illərində Naxçıvan Muxtar Respublikasında orta ixtisas məktəbləri və Müəllimlər İnstitutunun yaradılması nəticəsində muxtar respublikanın təhsil sahələrində ixtisaslı kadrlar hazırlanmağa başlanmış, bu isə regionun maarifinin inkişafına səbəb olan mühüm qüvvəyə çevrilmişdir. 1950-1960-cı illərdə muxtar respublikada ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, mühüm struktur dəyişiklikləri baş vermişdi. Müharibədən sonrakı 1945-1950-ci illər ərzində muxtar respublikada 176 ümumtəhsil məktəbi var idisə, 1960-cı ildə onların sayı 198-ə çatmışdı. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında dönüş mərhələsi oldu. Muxtar respublikanın iqtisadi, siyasi və mədəni həyatında inkişaf dövrü başlandı. 1970-ci ildən etibarən Heydər Əliyevin diqqət və qayğısı nəticəsində Muxtar Respublika təhsilinin bütün formaları inkişaf etmişdir.

Beləliklə, Naxçıvan MSSR-də 70-80-ci illərdə ümumitəhsil məktəbləri inkişaf etmiş və təhsilin səviyyəsi yüksəlmişdir. Məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, əhalinin savadsızlığının aradan qaldırılması sahəsində ciddi dəyişikliklər baş vermişdir.

Fəslin “**Müstəqillik illərində Naxçıvanda təhsilin inkişaf dinamikası”** adlanan ikinci yarımfəslində müstəqillik illərində təhsilin inkişaf səviyyəsi araşdırılmışdır.

1991-1993-cü illərdə Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının bugünkü uğurlarının, xüsusilə ümumitəhsilin inkişafının əsası qoyuldu. Təhsilə göstərilən diqqət və qayğı ilk günlərdən özünü büruzə verməyə başladı. Heydər Əliyev təhsildə islahatların hərtərəfli düşünülmüş şəkildə aparılmasını yüksək qiymətləndirirdi: “İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. Dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı

qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır”. Naxçıvan Muxtar Respublikasının təhsil sistemi Heydər Əliyevin diqqət və qayğısı sayəsində yenidən dirçəlməyə və sürətlə inkişaf etməyə başlamışdı. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikasında təhsilin sürətli inkişafı Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlı olaraq qiymətləndirilir.

1995-ci ilin dekabrında Naxçıvan Muxtar Respublika Ali Məclisinə sədr seçilən Vasif Talıbovun rəhbər kimi həyata keçirdiyi tədbirlər nəticəsində regionun siyasi, sosial-iqtisadi və mədəni inkişafında yeniliklər baş verdi, yaradılmış sağlam mühit, quruculuq və bərpa işləri geniş vüsət aldı. Muxtar respublikada dövlət qayğısının artması nəticəsində ümumtəhsilin inkişafına xərclər də artırılmış və uğurlu nəticələr əldə edilmişdir.

Demək olar ki, bu illərdə ümumtəhsil məktəbləri üzrə keçirilən yarışlarda Naxçıvan məktəbliləri xeyli uğur qazanmışdır. 2003-cü ildə keçirilən fənn olimpiadalarında muxtar respublikanın 101 məktəblisi iştirak etmiş, onlardan 73 nəfəri fəxri yer tutaraq diplomlara layiq görülmüşlər.

Təhsil sistemindəki nöqsan və çatışmazlıqlar muxtar respublika rəhbərliyinin diqqətindən kənarda qalmamış, bir-bir vurğulanmış, onların aradan qaldırılması üçün Təhsil Nazirliyi və müvafiq orqanlar qarşısında konkret məsələlər qaldırılmışdır. Belə ki, 2001-ci ildə Azərbaycan Respublikası üzrə ali məktəblərə qəbul zamanı imtahanlardan 0 – 100 bal toplayanlar 13,6% təşkil etmişdirsə, muxtar respublika üzrə bu göstərici 46,4% olmuşdur. Bütün bu faktlar 2002-cı il aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun iştirakı ilə keçirilmiş, Muxtar Respublika ümumtəhsil işçilərinin müşavirəsində səslənmişdir. Ali Məclisin Sədri Vasif Talıbov ciddi narahatlığını bildirmişdir.

Son dövrlərdə Prezident təqaüdünə layiq görülən tələbələrin, həmçinin, onlardan ali məktəblərə yüksək balla qəbul olanların sayının artması muxtar respublikada da ümumtəhsilin intensiv olaraq yüksəldiyini göstərir. Muxtar respublikada 2005-ci ildə 2, 2006-cı ildə 2, 2007-ci ildə 3, 2008-ci ildə 5, 2009-cu ildə 9, 2010-cu ildə isə 9 məzun yüksək bal toplayaraq ali təhsil müəssələrinə daxil olmuş, Prezident təqaüdünə layiq görülmüşdür.[22]

Muxtar respublika təhsilinin ümumi səviyyəsinin yüksəlməsinin əsas səbəblərindən biri olan məzunları ali məktəblərə qəbul olmayan məktəblərin sayının azalması istiqamətində görülən tədbirlərdir. Maraqlı faktlardan biri

---

[22] Cəfərov H.R. Naxçıvanda təhsil:inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011,544 s.

də odur ki, 2008-ci ildə məzunların ali məktəblərə qəbul olma göstəricilərinə görə Naxçıvan şəhəri Bakı şəhərindən sonra ikinci yeri tutmuşdur.

Təhsil tariximizdə ilk dəfə olaraq respublikada 2007–2008-ci tədris ilində "Ən yaxşı müəllim" müsabiqəsi keçirilməsi və qaliblərin mükafatlandırılması ölkəmizdə müəllimə göstərilən yüksək ehtiramın təzahürü idi. Təsadüfi deyil ki, 1998–2008-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafındakı xidmətlərinə görə 44 nəfər Azərbaycan Respublikasının əməkdar müəllimi adına layiq görülmüşdür. Həmçinin, 47 nəfər müəllim müxtəlif orden və medallarla təltif olunmuş, 7 nəfər müəllim Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 4 nəfər müəllim isə Prezident mükafatlarına layiq görülmüşlər.

Dissertasiya işində birinci fəslin III yarımfəsli "**Naxçıvan Muxtar Respublikasında məktəb tikintisinin inkişaf dinamikası"** adlanır ki, bu yarımfəsildə müstəqillik illərində məktəb tikintisi öyrənilmişdir. İlk öncə qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında məktəb tikintisinin tarixi çox geniş tarixi dövrü əhatə etmir.

Muxtar respublikada Heydər Əliyevin prezidentliyi dövründə orta ümumtəhsil məktəblərinin inkişafı sahəsində çox böyük işlər görülmüşdür. Muxtar Respublikada həmin dövrdə 100-ə yaxın orta məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur. Muxtar respublikada yeni məktəblərin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunması Ali Məclis Sədri Vasif Talıbovun fəaliyyətində əsas yer tuturdu. Son zamanlar Azərbaycan Respublikası hökumətinin daxili siyasətinə uyğun olaraq Ali Məclisin Sədri Vasif Talıbovun böyük səyi və qayğısı ilə muxtar respublikada 200-dən çox müasir tipli, bütün standartlara cavab verən məktəb binası inşa olunmuşdur ki, bu da ümumi təhsilin inkişafında mühüm rol oynamışdır. Beləliklə, Naxçıvan Muxtar Respublikasında məktəb tikintisinin inkişaf dinamikası müstəqilliyə qədər tədricən inkişafla müşahidə edilmiş, müstəqillik dövründə isə məktəb tikintisi dinamik şəkildə inkişaf etmişdir.

I fəslin IV yarımbaşlığı isə "**Ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər"** adlanır ki, bu yarımfəsildə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən tədbirlər araşdırılıb ortaya qoyulmuşdur. Məlumdur ki, təhsilin maddi-texniki təminatı ilə bağlı vəziyyəti əks etdirən göstəricilərdən biri də şagirdlərin siniflərdə orta sıxlığı idi.

1993-cü ildən sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasında ümumi təhsilə qayğı artmışdır. Təhsil sisteminin maddi-texniki bazası

tamamilə yeniləşdirilmişdir. Eyni zamanda, ümumi təhsilin yüksəlməsinə dövlət siyasətinin tərkib hissəsi kimi xüsusi diqqətlə yanaşılmış, təhsilin inkişafı sahəsində atılmış addımlar sonrakı illərdə öz bəhrəsini vermiş, bu sahədə yeni nəticələr əldə edilmişdir.

Dissertasiyanın ikinci fəsli "**Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında təhsil**" adlanır. Bu fəslin birinci yarımfəslində "**Azərbaycan Respublikasında təhsil siyasəti və Naxçıvan Muxtar Republikasında təhsilin vəziyyəti**" araşdırılmışdır. Azərbaycan Respublikasının yürütdüyü təhsil siyasəti, milli təhsilin inkişafında yeni mərhələ Prezident İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi ilə başlanmışdır. Bu strateji siyasətin həyata keçirilməsi üçün son illər ölkəmizdə təhsilə göstərilən dövlət qayğısı mühüm inkişafa səbəb olmuşdur. Heydər Əlyevin müəllifi olduğu Təhsil İslahatının ötən on üç ildə ölkə Prezidenti İlham Əliyev tərəfindən davamlı olaraq həyata keçirilməsi nəticəsində təhsilin normativ-hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində geniş tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının müxtəlif şəhər və rayonlarında 2500-ün üzərində məktəb binası tikilib istifadəyə verilmiş, mövcud təhsil obyektlərində əsaslı təmir və bərpa işləri görülmüşdür. Təhsil müəssisələri yeni texnologiya ilə təchiz edilmiş, informasiya-kommunikasiya texnologiyaları tətbiq olunmuşdur. Bu sahədə modernləşməyə, çağdaş dünyanın tələblərinə uyğun standartlara nail olunmuşdur. Ölkədə təhsilin ayrı-ayrı istiqamətləri üzrə böyük uğurlar qazanılmışdır.

Respublikada təhsil sahəsində ardıcıl tədbirlər həyata keçirilmiş, nəticədə mühüm irəliləyişlərə nail olunmuşdur. Ölkəmizdə son 13 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında aparılmış islahatlar, görülmüş tədbirlər qazanılmış nəticələrin gələcək inkişafına stimul vermişdir. Bu sahədə modernləşməyə, çağdaş dünyanın tələblərinə uyğun standartlara nail olunmuşdur. Ölkədə təhsilin ayrı-ayrı istiqamətləri üzrə böyük uğurlar qazanılmışdır. Belə ki, Respublikada təhsil xərcləri dəfələrlə artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında müstəqilliyin ilk illərindən etibarən təhsilin yeni inkişaf yoluna keçməsi tədqiqat üçün maraqlı problem olduğunu nəzərə alaraq bu məsələyə xüsusi diqqət yetirilir. Naxçıvan MR-də ümumitəhsilin yeni inkişaf istiqamət götürdüyü dövr Heydər Əliyevin Azərbaycan Respublikasında yenidən siyasi hakimiyyətə qayıtması ilə əlaqəli idi. Təhsilin inkişafını ölkəmizin, xalqımızın gələcəyi hesab edən Heydər Əliyevin bu sahədə müəyyənləşdirdiyi strategiya muxtar respublika-

mızda da uğurla davam etdirilmiş və hazırda da etdirilir. Blokada şəraitinin çətinliklərinə baxmayaraq muxtar respublikada da təhsilin ayrı-ayrı pillələrində toplanmış potensial onun inkişafına yönəldilmişdir. Muxtar respublikada təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi, o cümlədən yeni müasir tipli məktəb binalarının inşa edilməsi, mövcud təhsil ocaqlarının yenidən qurulması təhsilin inkişafına öz təsirini göstərməkdədir.

Bu fəslin ikinci yarımfəsli **"Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla və dərsliklərlə təmin edilməsi"** məsələsinə həsr edilmişdir. İlk öncə qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təmin olunması məsələsi təhsil siyasətinin ən əsas prinsiplərindən biri idi. Vaxtilə Naxçıvan MSSR-də 70-80-ci illərdə ali və orta ixtisas təhsil sisteminin möhkəmləndirilməsi ilə əlaqədar olaraq yüksəkixtisaslı mütəxəssislərin sayı xeyli dərəcədə artırılmış, nəticədə muxtar respublikanın ümumtəhsil məktəblərinin gələcək inkişafı üçün mənəvi potensial, kadr potensialı formalaşmışdır. Heydər Əliyevin rəhbərliyi altında XX əsrin 70-ci illərində Azərbaycanda təhsil müəssisələri şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının möhkəmləndirilməsi, respublika hüdudlarından kənarda yüksək ixtisaslı kadrların yetişdirilməsi ilə geniş vüsət aldı. Uzaqgörən dövlət başçısı Heydər Əliyev cəmiyyətin inkişafını düzgün olaraq təhsildə görmüş, haqlı olaraq Azərbaycanın intibah dövrü kimi səciyyələndirilən 1969–1982-ci illər Azərbaycan təhsilinin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Belə ki, 1971-75-ci illərdə muxtar respublikanın 121 müəllimi və maarif işçisi qabaqcıl təcrübə ilə tanış olmaq üçün Moskva, Leninqrad və müttəfiq respublikaların paytaxtlarında ezamiyyətdə olmuşdular. 1976-1980-ci illərdə muxtar respublikada 2836 müəllim attestasiyadan keçmiş, 3718 müəllim isə yenidən hazırlıq kurslarında oxumuşdur. Onu da qeyd edək ki, Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bu təhsil siyasəti müstəqilliyin ilk illərindən etibarən start götürdü və muxtar respublikada təhsilin formalaşması və inkişafı üçün zəmin yaratdı.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Respublikada təhsilin inkişafında əsas rol oynayan amillərdən biri milli ruhlu müəllim kadrlarının yetişdirilməsi oldu. Bu məsələ Azərbaycan Respublikasında və onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirildi.

Ümumtəhsil məktəblərini pedaqoji kadrlarla təmin etmək üçün atılan addımlardan bir də hər il ənənəvi olaraq muxtar respublikada təhsil yarmarkalarının təşkil edilməsidir. Bu işə 2005 -ci ildən başlanılmış, muxtar

respublikada təhsilin keyfiyyət və kəmiyyətcə inkişaf etdirilməsinə öz təsirini göstərmişdir. Hər tədris ilində təhsil müəssisələrinə gənc kadrların yerləşdirilməsi məqsədilə şəhər və rayonların təhsil şöbələri və məşğulluq mərkəzləri birgə fəaliyyət göstərirlər. Belə ki, muxtar respublika ərazisində yerləşən məktəblərin vakant yerləri ixtisaslar üzrə müəyyənləşdirilir, muxtar respublikanın ayrı-ayrı təhsil müəssisələri üzrə boş yerlərin uçotu aparılır, təhsil yarmarkalarına çıxarılır.

Təhsilin inkişaf etdirilməsi üçün ən əsas işlərdən biri ümumtəhsil məktəbləri üçün yeni dərsliklərin yazılması istiqamətində ciddi addımların atılması idi. Bu sahədə yeni tədbirlər həyata keçirildi. Belə ki, dərsliklər məzmunca yeniləşdi. Dərsliklər yeni latın qrafikalı əlifba ilə nəşr edildi. 2003-cü ildə təhsil sistemində baş verən bu tədbirlərin nəticəsində orta məktəblər inkişaf edərək əvvəlki illərlə müqayisədə xeyli dəyişdi.

Məktəblərin dərsliklərlə təmin edilməsində Heydər Əliyev Fondu böyük işlər gördü. Fond tərəfindən beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində ölkəmizin məktəblərinə müxtəlif adda dərsliklər alınıb paylanmışdır. Maraqlı haldır ki, respublikada "Ümumtəhsil məktəblərinin dərsliklə təminatı proqramı (2006–2015-ci illər)" çərçivəsində hər il dərs-liklər yeni tədris proqramlarına uyğun yenilənir və çap olunaraq məktəblərə pulsuz paylanır.

Muxtar respublika rəhbərliyinin ümumtəhsil məktəblərində təhsil alan şagirdləri dərslik, dərs vəsaiti və bədii ədəbiyyatla təmin etməsi qay-ğının və diqqətin nəticəsidir.

Muxtar respublikada 2005-ci ildən 2010-cu ilədək 1.257918 nüsxə dərslik, 475 adda 606813 ədəd latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə, dərslərdə əyaniliyin təşkili, müasir təlim texnologiyalarının tətbiqi məqsədilə 200 adda 86750 ədəd müxtəlif fənləri əhatə edən plakat, 1020 ədəd elektron tədris vəsaiti, məktəbəqədər tərbiyə müəssisələri üçün 2131 ədəd CD-ləri, 1618 ədəd intellekt oyun fiqurları məktəb kitabxanalarına verilmişdir.[23] Bununla yanaşı, 2008-ci ildə kurrikulumun tədrisi ilə əlaqədar olaraq 3380 ədəd dərslik və müəllimlər üçün vəsait, Heydər Əliyev Fondu hesabına 15 fənn üzrə 140 adda 74510 ədəd tədris vəsaiti, birinci sinif şagirdləri üçün 5025 ədəd çanta və digər dərs ləvazimatları istifadə üçün ümumtəhsil məktəblərinə paylanmışdır. Bu iş hər

[23] Talıbov V.Y. Yüzillik inkişafın zirvəsi, 1969-1999-cu illər. "Azərbaycan" qəzeti, 1999, 16 iyul.

il ardıcıl olaraq davam etdirilmişdir. Belə ki, 2005-2016-cı illər ərzində Naxçıvan Muxtar Respublikasında orta məktəblərə 2.354711 dərslik verilmişdir.

**"Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təhsilinin təşkili məsələsi və istedadlı, yaradıcı şagirdlərin üzə çıxarılması sahəsində həyata keçirilən tədbirlər"** adlanan üçüncü yarımfəsldə qayğıya ehtiyacı olan uşaqların və istedadlı, yaradıcı şagirdlərin üzə çıxarılması sahəsində həyata keçirilən tədbirlərdən bəhs edilmişdir. Belə ki, 1930-cu ildən başlayaraq Naxcıvan şəhərində və rayonlarında "Pionerlər evi", 1950-ci ildən "Gənc texniklər" adı altında məktəbdənkənar tərbiyənin təşkili üçün ilkin müəssisələrin yaradılmasına başlandı.

Müstəqillik əldə edildikdən sonra bu iş yenidən ardıcıl və məqsədli şəkildə həyata keçrilməyə başlanılmışdı. Dövlət başçısı tərəfindən təsdiq edilmiş təhsillə bağlı proqramlar sırasında "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006–2010-cu illər)" xüsusi yeri vardır.

Bu proqrama uyğun olaraq muxtar respublikada Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Texniki Yaradıcılıq, Ekoloji Tərbiyə, Turist-Diyarşünaslıq mərkəzlərinin, Şahmat və Musiqi məktəbləri binaları əsaslı şəkildə təmir edilmiş, şagirdlərin istifadəsinə verilmişdir.

Beləki, muxtar respublika üzrə 1785 nəfəri sağlamlıq imkanları məhdud olan, 120 nəfəri isə hər iki valideynini itirmiş uşaqlar vardır ki, onların müalicəsi üzrə Naxçıvan şəhər Uşaq Bərpa Mərkəzi, Körpələr evi və Ailələrə Dəstək Mərkəzi, gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəb tikilərək istifadəyə verilmişdir. Bütün bunlar məqsədli şəkildə xalqımızın gələcəyi olan bugünkü uşaqları həyata, təhsilə, cəmiyyətin inkişaf etməsinə lazım olan səviyyədə hazırlamaq üçün edilmişdir.

Bu işə uyğun olaraq fənn olimpiadaları keçirilməyə başlanıldı. Fənn olimpiadalarının keçirilməsində məqsəd şagirdlərin müxtəlif fənlərə olan marağının artırılması, onlara bilik və bacarıqlarını nümayiş etdirmək üçün şəraitin yaradılması, məktəblilər arasında sağlam rəqabət hissinin formalaşdırılması və istedadlı şagirdlərin üzə çıxarılmasından ibarətdir. Bu olimpiadaların ümumi məqsədə xidmət etməsi təhsilin inkişaf etdirilməsi istiqamətində atılan ən dəyərli addımlardandır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014–2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqlara göstərilən diqqət və qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında məhdud fiziki imkanlılara göstərilən sosial xidmətlərin həcmi davamlı olaraq artırıldı. Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını sürətləndirmək məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılmış, görmə qabiliyyəti məhdud şəxslər üçün hər ay "Könül işığı" adlı brayl jurnalının nəşrinə başlanılmışdır. Yay tətili dövründə sağlamlıq imkanları məhdud 47 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətinin təşkil edilməsi də bu məqsədə xidmət edən tədbirlərdəndir. Həmçinin ötən dövr ərzində serebral iflici, autizm və daun sindromlu uşaqların sosial inteqrasiyasına nail olmaq məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzinin həkim-nevropatoloqu və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-defektoloqu valideynlərlə maarifləndirici görüşlər keçirmişlər.

Dissertasiyanın **"Məktəbəqədər və məktəbdənkənar müəssisələrin inkişafı"** adlanan III fəsli iki yarımfəsildən ibarətdir. "**Məktəbəqədər müəssisələrin vəziyyəti, məktəbdənkənar tərbiyə müəssisələrinin inkişafı və onunla bağlı həyata keçirilən tədbirlər"** adlı I yarımfəsildə müstəqillik illərində məktəbəqədər müəssisələrin vəziyyəti, məktəbdənkənar tərbiyə müəssisələrinin inkişafı və onunla bağlı həyata keçirilən tədbirlər öyrənilmişdir.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1970-1980-ci illərdə Heydər Əliyevin xüsusi qayğısı nəticəsində muxtar respublikada məktəbəqədər təhsil müəssisələrin şəbəkəsi genişləndirilmiş, yeni obyektlər tikilmişdir. Uşaq bağçalarının sayı Naxçıvan şəhəri üzrə 7-dən 13-ə, Şərur rayonu üzrə 4-dən 6-ya, Culfa rayonu üzrə 5-dən 10-a, Şahbuz rayonu üzrə 4-dən 7-yə qədər yüksəlmişdir. Bu illərdə bütövlükdə muxtar respublikada 24 məktəbəqədər təhsil müəssisəsi inşa edilmişdir. 1994-cü ildə muxtar respublikada 108 belə müəssisə olmuşdur.[24]

Müstəqillik illərində məktəbəqədər müəssisələrin 87 faizi yenidən qurulmuşdur. 2003-2013-cü illərdə 2260 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir. Son illər muxtar respublikada 17 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilmişdir.

Məktəbdənkənar tərbiyə müəssisələri şəbəkələrinin yaradılmasında da böyük irəliləyiş məhz Heydər Əliyevin hakimiyyətə birinci gəlişinin ilk

---

[24] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 3-cü kitab: dekabr, 1994-iyun, 1995 / buraxılışa məsul R.Mehdiyev. Bakı: Azərnəşr, 1997, 488 s.

illərinə təsadüf edir. Əgər 1970-ci ilədək Naxçıvan Muxtar Respublikasında 7 belə müəssisə fəaliyyət göstərirdisə, son on ildə bu müəssisələrin sayı 30-dək yüksəlmişdir. Heydər Əliyevin xüsusi göstərişi və tapşırığı ilə 1978-ci ildə Naxçıvan şəhərində "Pionerlər sarayı", bundan sonra Ordubad şəhərində "Pionerlər evi" tikilib istifadəyə verilmişdi. Belə ki, Ulu öndər müstəqillik illərində də bu tip müəssisələrin bağlanmasının yolverilməz olduğunu qeyd edərək, tərbiyə işinin strateji əhəmiyyətli iş olduğunu nəzərə alaraq bunun dövlət himayəsində olacağını bildirmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemindəki məktəbdənkənar müəssisələrin nümunəvi siyahısında göstərilən 13 məktəbdənkənar müəssisə tipindən yeddisi Naxçıvan MR Təhsil Nazirliyi sistemində fəaliyyət göstərir. Bunlar Uşaq Yaradıcılıq Sarayı və mərkəzləri, Ekoloji Tərbiyə mərkəzləri, Texniki Yaradıcılıq mərkəzləri, Turist-diyarşünaslıq mərkəzləri, Estetik Tərbiyə mərkəzi, Şahmat məktəbi və Uşaq-Gənclər İdman məktəblərindən ibarətdir.

Naxçıvan MR-də ümumilikdə 40 məktəbdənkənar müəssisə fəaliyyət göstərir ki, onlar da respublika, şəhər, rayon mərkəzlərinə bölünürlər. Bu müəssisələrin işi Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemindəki məktəbdənkənar müəssisələrin nümunəvi əsasnaməsinə uyğun olaraq müəssisələr tərəfindən hazırlanmış nizamnaməyə uyğun qurulur və idarə olunur. Naxçıvan MR üzrə rayon tabeliyində olan məktəbdənkənar müəssisələr Şərurda 6, Babəkdə 6, Ordubadda 5, Şahbuzda, Culfada 6, Sədərəkdə 4, Kəngərlidə 4 olmuşdur.[25]

Məktəbdənkənar müəssisələrdə tərbiyə müəssisələrinin nəzdində kiçik yaşlı məktəblilərin ictimai birliyi kimi yaradılan "Gənc Heydərçilər" dəstəsi son zamanlar Naxçıvan MR Uşaq-Gənclər Yaradıcılıq Sarayının nəzdində yaradılan birliklərdəndir ki, bunların yaradılmasında əsas məqsəd kiçik yaşlı məktəblilərə ümummilli liderimizin həyat və fəaliyyətinin öyrədilməsinə şərait yaratmaqdır. Gənc nəslin ekoloji təhsili və tərbiyəsi üçün fəaliyyət göstərən təşkilatlardan biri də Naxçıvan MR Uşaq Ekoloji Polisidir. Muxtar respublikanın təbiətinin qorunmasında UEP məktəblilər arasında maraqlı və lazımlı maarifləndirmə işləri aparmış, onların həyatın bu sahəsinə hazır olmasında mühüm rol oynamışlar.

Eyni zamanda, tərbiyə müəssisələri tərəfindən orta məktəblərdə təşkil edilən yaradıcılıq və bilik yarışlarının da xüsusi rolu vardır. Məsələn,

---

[25] Cəfərov H.R. Naxçıvanda təhsil:inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 544 s.

Naxçıvan MR Estetik Tərbiyə Mərkəzi tərəfindən orta məktəb şagirdləri arasında keçirilən rəsm, mahnı müsabiqələri, Naxçıvan MR Uşaq-Gənclər Yaradıcılıq Sarayı tərəfindən keçirilən müxtəlif idman yarışları, rəsm müsabiqəsi, Texniki Yaradıcılıq Mərkəzi tərəfindən keçirilən texniki yaradıcılıq həftəsi, Ekoloji Tərbiyə Mərkəzi tərəfindən keçirilən və təbiətin mühafizəsinə həsr olunmuş viktorina yarışları bu baxımdan çox böyük əhəmiyyət daşıyır. Son illərdə muxtar respublikada 8 məktəbdənkənar tədris müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur.

Üçüncü fəslin **"Gənclərin vətənpərvərlik tərbiyəsində məktəbdənkənar müəssisələrin rolu"** adlanan ikinci yarımfəslində müstəqillik illərində məktəbdənkənar müəssisələrdə gənclərin vətənpərvərlik tərbiyyəsində rolu araşdırılmış və bununla bağlı görülən işlər ortaya çıxarılmışdır. Müstəqillik əldə ediləndən sonra ümumtəhsil məktəblərində uşaq və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi prioritet istiqamətlərdən biri olmuşdur. Müasir gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə alması üçün təlim-tərbiyənin məzmunu, forması, metodları və yolları dəyişmişdir. Məktəblilərə qloballaşan dünyada milli-mənəvi dəyərlərin qorunmasının əhəmiyyəti aşılanır, bu, bilik, bacarıq və vərdişlərin məcmuunda gənclərin inkişafı geniş vüsət alır. Respublikamızda vətənpərvərlik tərbiyəsi sahəsinə diqqət xeyli artırılmış, milliliyə üstünlük verilmiş, yeni tərbiyə proqramları layihələri işlənib hazırlanmışdır. Tərbiyə prosesinin bütün sahələri layihədə öz əksini tapmışdır. Ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, vətənpərvərlik insanın daxilindəki duyğulardır, əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır. Naxçıvan Muxtar Respublikası məktəblərində şagirdlərin mənəvi, hərbi-vətənpərvərlik, estetik tərbiyəsi sahəsində aparılan işlər cəmiyyətimizin müasir inkişaf mərhələsində mühüm yer tutur. Bu, məktəblərdə hərbi-vətənpərvərlik, təbliğat-təşviqat guşələrinin fəaliyyət göstərməsi ilə özünü göstərir.

Muxtar respublikanın bütün məktəblərində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilmiş, məktəblərdə hərbi kabinələrin fəaliyyətini yaxşılaşdırmaq üçün çox işlər görülmüşdür.

Muxtar respublika məktəblilərinin hərbi-vətənpərvərlik tərbiyəsini artırmaq üçün hər il müntəzəm olaraq "Qartal balası", "Üfüqdə parıltı" hərbi-idman oyunları keçirilir, yarışlar təşkil edilirdi.

Tərbiyə müəssisələrində fəaliyyət göstərən dərnəklər yaradılmışdır ki, bunların sırasında musiqi dərnəkləri, bədii yaradıcılıq dərnəkləri, təsviri incəsənət dərnəkləri, dekorativ-tətbiqi sənət dərnəkləri, diyarşünaslıq dərnəkləri, texniki dərnəklər, ekoloji dərnəklər, turizm dərnəkləri, idman və hərbi-vətənpərvərlik dərnəklərinin fəaliyyətini göstərmək olar.

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş, məqsəd və vəzifələrin yerinə yetirilməsi haqqında ümumiləşdirici məlumatlar verilmiş, elmi nəticələr çıxarılmışdır. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müstəqillik illərində ümumtəhsil məktəbləri hərtərəfli inkişaf etmişdir. Eyni zamanda, elmin bu sahəsində mövcud olan boşluqlar doldurulmaqla müəyyən məsələlərə aydınlıq gətirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**


1. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı (1993-2003-cü illər) // Tarix və onun problemləri, 2016, № 1, s. 169-175
2. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqaməti kimi // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Humanitar elmlər seriyası, 2012, № 1 (44), s. 160-163
3. XIX əsrdə Naxçıvanda təhsil: Zemstvo məktəbi, xalq məktəbi, ibtidai məktəb // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və Humanitar Elmlər seriyası, 2013, № 3, s. 63-69
4. Təhsilimizin intibah mərhələsi (2003-2010-cu illər) // Tarix və onun problemləri, 2012, № 1, s. 261-266
5. Müstəqilliyə qədər və müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında məktəb tikintisinin inkişaf dinamikası (1941-2015) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası, 2016, № 6 (74), s. 71-77
6. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili məsələsi və istedadlı, yaradıcı şagirdlərin üzə çıxarılması sahəsində həyata keçirilən tədbirlər // Tarix və onun problemləri, 2016, № 4, s. 286-291
7. Нахчыванская щкола в XIX веке. Тендечии развития психологии, педагогики и образования / Сборник научных по итогам международной научно-практической конференчии. Казан, 2014, № 3, с. 8-10
8. История развития образования в Нахичеване // Вестник Казахский НПУ имени Абая. Серия междунарадная жизнь и политика. Алмааты, 2017, №1 (48), с. 48-53
9. Naxçıvan Muxtar Respublikasının ümumtəhsili (1920 – 1930)-cu illərdə // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Humanitar elmlər seriyası, 2017 № 1 (82), s. 205-208

**Yegane Mammadova**

## The development history of secondary schools in Nakhchivan Autonomous Republic (1991-2015 years)

### SUMMARY

The thesis consists of an introduction, 3 chapters, a conclusion, the list of used literature and an additional schedule.

The actuality of the subject was motivated, the object of the research, its goals and positions, the scientific innovation and the importance of experience were defined, the basis of methodological, the source of database were shown, the level of investigation of the subject was analyzed in the "Introduction" of the dissertation.

The first chapter of the dissertation is called "The development of education in NAR, the school construction and the consolidation of its logistical base". In this chapter the development history of education in Nakhchivan was reviewed, the school construction and the consolidation of its logistical base were studied.

In the second chapter the issues were investigated about the situation of education, the education policy, the issues done as a result of policy, the provision of secondary schools with teaching staff and textbooks, the issues of organizing education of the students who need care and in the field of revealing talented and creative students during the years of independence in Nakhchivan Autonomous Republic. During the investigation it was revealed that accompanied by the development in the autonomous republic, the serious events are held as a result of the issues in the field of education and the care shown to the common education.

The third chapter of the dissertation is called "The development of preschool and non-school institutions in the years of independence". In this chapter the development of preschool and non-school institutions were investigated as a result of investigation, the situation of preschool institutions, the non-school educational institutions and the issues carried out during the years of independence, the role of non-school institutions in the patriotic education of youth were revealed.

Dealing with the investigated subject, the scientific opinion and provisions were generalized in the "Conclution" of the dissertation.

**Егяна Мамедова**

# История развития общеобразовательных школ в Нахчыванской Автономной Республике (1991-2015-е годы)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения, библиографического списка и приложенной таблицы.

Во ведении обоснована актуальность темы, определены объект, цель и задачи, научная новизна и практическая значимость исследования, указаны методологическая основа и база источников, проанализирован исследовательский уровень темы.

Первая глава диссертации называется «Развитие образования в Нахчыванской Автономной Республике, строительство школ и укрепление их материально-технической базы». Здесь рассмотрена история развития образования в Нахчыване, изучены проблемы строительства школ и укрепления их материально-технической базы.

Во второй главе рассмотрены такие вопросы, как состояние образования в НАР в годы независимости, образовательная политика и реализование мерисходящих из неообеспечение общеобразовательных школ педагогическими кадрами и учебниками, организация обучения нуждающихся детей и меры по выявлению талантливых и успешных школьников. В ходе исследования было выявлено, что в итоге реформ в сфере образования и заботе об образовании в автономной республике были замечены значительный прогресс и перемены.

В третьей главе, под названием «Развитие дошкольных и внешкольных учреждений в годы независимости» исследовано развитие данных учреждений в годы независимости. В результате исследования были выявлены состояние дошкольных учреждений, развитие внешкольных воспитательных учреждений и меры,реализованные в этой сфере в период независимости, роль внешкольных учреждений в патриотическом воспитании молодежи.

В заключении обобщены научные выводы исследования.

Çapa imzalanmışdır: 18.04.2017
Formatı: 60x90, 16/1, həcmi: 1.6 ç/v.
Tiraj: 100, Sifariş № 30

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ЕГЯНА КУРБАН кызы МАМЕДОВА**

# ИСТОРИЯ РАЗВИТИЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ (1991-2015-е годы)

**Специальность: 5503.02-Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени**
**доктора философии по истории**

**НАХЧЫВАН-2017**